# Laçının azad edilməsi ilə Azərbaycan ərazi bütövlüyünə qovuşdu

***Vətən müharibəsində qələbəmizin təmin olunması möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun tam yenidən qurularaq dünya standartları səviyyəsinə çatdırılması, ölkəmizin ərazi bütövlüyü uğrunda dövlət başçısının qətiyyətli mövqeyi və xalqımızın sarsılmaz iradəsi nəticəsində mümkün oldu. Rəşadətli Azərbaycan Ordusunun uğurlu döyüş əməliyyatı nəticəsində işğal altında qalan Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi və mühüm strateji əhəmiyyətli yüksəkliklər azad edildi. Təslim olan düşmən birgə bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdamı, noyabrın 25-də Kəlbəcəri boşaltmalı oldu. Dekabrın 1-də Laçın rayonunun azad edilməsi ilə əzəli və doğma Vətənimiz Azərbaycan özünün ərazi bütövlüyünü təmin etdi.***

Üçtərəfli bəyanatın imzalanması, mühüm strateji əhəmiyyətə malik olan Ağdamın , Kəlbəcərin və Laçının heç bir güllə atılmadan sülh yolu ilə azad edilməsi xüsusi vurğulanmalıdır. Ermənistan silahlı qüvvələrinin müəyyən edilən cədvəl əsasında Azərbaycana məxsus ərazilərdən çıxarılması, qalib sərkərdə, Prezident İlham Əliyevin uzaqgörən, düşünülmüş, düzgün taktika və strategiyasının parlaq nəticəsinin təzahürü kimi qiymətləndirilməlidir. Bu zəfər, həm də şanlı Azərbaycan Ordusunun igid, qorxmaz, qəhrəman əsgər və zabitlərinin doğma torpaqlarımız uğrunda yüksək hərbi peşəkarlıq, tükənməz Vətən sevgisi və qəhrəmancasına vuruşmalarının əyanı nümunəsidir. Güclü ordunun yaradılması, silahlı qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsinin kökündə dayanan həqiqətlərdir. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə hazırkı dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik olan orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirdi. İnanırıq ki, ordumuzun döyüş əməliyyatlarını xüsusi peşəkarlıqla planlaşdıraraq həyata keçirmək strategiyası və taktikası digər ölkələrin hərbi strukturları tərəfindən öyrəniləcək və tətbiq ediləcəkdir.

Bir daha sübut olundu ki, ölkəmizdəki xalq-iqtidar birliyi sayəsində ən çətin məsələlər çox tez bir zamanda həll edilir. Azərbaycan xalqı qələbəni böyük sevinc, coşqu və məhəbbətlə yaşayır. Bu qələbə Azərbaycan xalqına, xalqımız da bu qələbəyə layiqdir.

Çox sevindirici və qürurverici haldır ki, Prezident İlham Əliyev Laçının azad edilməsi münasibətilə xalqa müraciət etdi. Laçının erməni işğalından azad edilməsi təkcə laçınlıları deyil, hər birimizi sevindirir. Bu qələbə həm də xalqla müzəffər Ali Baş Komandanın və xalqla ordunun qırılmaz və möhtəşəm birliyinin təzahürüdür.

28 il 6 aydan sonra Laçının azad edilməsi orada yerləşən tariximizin bizə qayıtmasıdır. Laçın rayonu ərazisindəki memarlıq abidələrinin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Laçın ərazisində yerləşən möhtəşəm tarixi abidələrimiz olan– Ağoğlan çayı sahilində IX əsrdə inşa edilmiş, məharətli konstruktiv həllinə görə alban xristian memarlığı abidələri içərisində xüsusi yer tutan və uzun müddət fəaliyyət göstərmiş Ağoğlan monastır kompleksi, Hoçaz kəndindəki V əsrə aid mağara-məbəd, Cicimlidə XIV əsrə aid Məlik Əjdər türbəsi, Mirik kəndində XV əsrə aid alban məbədi, Minkənddə XV əsrə aid məbəd, Qarıqışlaq kəndində XI əsrə aid Dəmirovlu piri, Ağoğlan məbədinə gedən yolun sağında XVI əsrin at heykəlli və sənduqə formalı qəbir daşları, Ərikli kəndində XVI əsrə aid Qarasaqqal türbəsi, Həkəri çayı üzərindəki körpü, Hüsülü kəndində Həmzə Sultan sarayı, Güləbirddəki Sarı Aşığın qəbirüstü ziyarətgahı, Pircahan çayında Məşədi Mehralının arxitekturalı və Minkənd körpüləri kimi tarixin nadir inciləri erməni vandalları tərəfindən darmadağın edilmişdir.

Təəssüflər olsun ki, Laçının işğalından sonra bu tarixi abidələrimizin əksəriyyətinin daş-divarlarındakı yaddaş tarixləri dəyişdirilib silinərək, erməniləşdirildi və dünyaya "qədim erməni xalqının yazılı tarixi abidələri" kimi təqdim edildi.

Faşist ideologiyasına xidmət edən mənfur və rəzil düşmən olan ermənilər Laçında qanunsuz qazıntılar aparıb və tapılmış qiymətli tarixi əşyaları Ermənistana daşıyıblar. Bununla kifayətlənməyərək, digər tarixi abidələrimizi yerlə-yeksan ediblər. Bu vəhşilik "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının, "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının 1999-cu il protokolunun (Ermənistan bu protokolun üzvüdür), "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyasının tələblərinin pozulmasıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu vandalizmi törədən qaniçən düşmənin xalqımıza vurduğu maddi və mənəvi ziyana görə layiqli cəzasını alması üçün dövlətimizin əlaqədar qurumları nüfuzlu beynəlxalq təşkilatlarla birlikdə bütün hüquqi imkanlardan istifadə edəcək.

İnanırıq ki, dövlətimizin başçısının müraciətində qeyd edildiyi kimi, işğaldan azad edilən bütün rayon, şəhər, qəsəbə və kəndlərimiz kimi Laçın rayonu da böyük sevinc və fərəh hissi ilə Vətənə qayıdan zəhmətsevər laçınlıları qoynuna alaraq, daha da çiçəklənəcək, onların tükənməz Vətən sevgisi və fəal iştirakı ilə yenidən qurularaq dirçələcək. Zəngin təbii ehtiyatlarından tam və səmərəli istifadə edilərək, tez bir zamanda Vətənimizin cənnət guşələrindən birinə çevriləcək.

Tariximizin ən möhtəşəm qələbəsinin müəllifi kimi, zəfərin əbədi olsun, müzəffər Prezident, cənab Ali Baş Komandan! Gözün aydın olsun, doğma və sevimli Vətən! Dədə-baba yurdunuza qayıdışınız mübarək olsun, əziz laçınlılar!

***Bayram MƏMMƏDOV,***
***ehtiyatda olan polkovnik-leytenant, Milli Məclisin deputat köməkçisi, Əməkdar müəllim***

Xalq qəzeti 2020.- 3 dekabr.- S.3.